*Azərbaycan Respublikası*
*Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın*
*2021-ci il 27 iyul tarixli, 01 saylı iclasının qərarı ilə qəbul edilmişdir*

# Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın Etik Davranış Qaydaları

## 1. Fundamental dəyərlər və prinsiplər

### Fundamental dəyərlər

Etik Davranış Qaydaları (bundan sonra: Qaydalar ) Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura (bundan sonra: İctimai Şura) üzvlərinin rəhbər tutduqları aşağıdakı fundamental dəyərlərə əsaslanır:

- insan hüquqlarının və sosial ədalətin təşviqi;
- insan ləyaqətinə hörmət;
- gender bərabərliyinin və ədalətin təşviqi;
- işgəncə və pis rəftarın qəbuledilməzliyi;
- şəffaflıq və hesabatlılıq;
- korrupsiya və digər qanunsuz əməllərə qarşı mübarizə;
- yaxşı idarəçilik;
- vətəndaş iştirakçılığının təşviqi;
- müxtəliflik və inklüzivliyin təşviqi;
- ətraf mühitin qorunmasının təşviqi;
- pozitiv davamlı dəyişikliklər həyata keçirmək öhdəliyi.

### Fundamental prinsiplər

Fundamental dəyərlərdən başqa İctimai Şura üzvlərinin rəhbər tutacağı fundamental prinsiplər aşağıdakılardır:

- *Qanunçuluq:* İctimai Şura fəaliyyətini "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının qanunu, Azərbaycan Respublikasında qüvvədə olan digər qanunvericilik aktları əsasında həyata keçirir.
- *Könüllülük:* İctimai Şura üzvləri könüllülük əsasında fəaliyyət göstərir. İctimai Şuranın fundamental xarakteri ondan ibarətdir ki, bu qurum müstəqil, özü-özünü idarə edən və könüllü birlikdir.
- *Şəffaflıq:* İctimai Şura fəaliyyətini şəffaf qurur və qəbul edir ki, cəmiyyət, dövlət qurumları, media, beynəlxalq təşkilatlar və istənilən digər maraqlı tərəfin ona ictimai etimadı üçün şəffaf fəaliyyət böyük əhəmiyyət kəsb edir. İctimai inamı yaratmaq və inkişaf etdirmək üçün İctimai Şura üzvləri ümumi ictimai hesabatlılıq və şəffaflıq nümayiş etdirməli və bütün maraqlı tərəflərə informasiya bölüşərkən həqiqətə söykənməli və səmimi olmalıdırlar.
- *Plüralizm:* İctimai Şura öz fəaliyyətində plüralizmi təmin edir. Amma Şura üzvləri arasında olan fikir müxtəlifliyinin İctimai Şuranın cəmiyyətdə olan ictimai etimadına xələl gətirməsinə yol verilmir. Üzvlər öz təşkilatlarının və özlərinin maraqlarından əvvəl İctimai Şuranın maraqlarını qorumalıdırlar.
- *Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi:* İctimai Şura fəaliyyəti ilə bağlı qərarlar qəbul edərkən və addımlar atarkən üzvlər qərəzsizliyi qoruyub saxlamalı, ayrı-seçkiliyə yol verməməlidir. İctimai Şura və onun üzvləri dövlət orqanı, ideologiya və ya dinin cərəyan və hərəkatların bir hissəsi ola bilməz və onların diktəsi ilə addım ata bilməzlər. Şura üzvləri hansısa hökumət qurumu, təşkilat və ya şəxs tərəfindən keçmişdə, indi və ya gələcəkdə olan yaxud ola biləcək peşəkar, şəxsi və maliyyə əlaqələrindən təsirlənməməlidirlər.

## 2. İctimai Şura daxilində etik davranış

***Nəzakətli davranış:***

İctimai Şura üzvləri özlərini həmişə nəzakətli və digər üzvlərə hörmət saxlayaraq aparmalıdırlar. Onlar heç bir verbal və ya fiziki münaqişəyə, o cümlədən heç bir formada hədəyə yol verməməlidirlər. Xüsusən, milli, etnik, mədəni, gender və dini və digər inanclar üzərindən açıqlamalar yolverilməzdir. İctimai Şura üzvləri fikir müxtəlifliyinə və həmkarlarının fərqli mövqelərinə hörmət etməlidirlər. Onlar təmsil etdikləri İctimai Şuranın məqsədlərinə və inkişafına yönəlmiş istənilən yeni və müxtəlif ideyaları dinləməyə və müzakirə etməyə hazır olmalıdırlar.

***Maraqlar toqquşmasının qarşısının alnması:***

İctimai Şuranın işində və qərarların qəbul edilməsində iştirak zamanı üzvlər İctimai Şuranın məqsəd və məramlarını öz təşkilatlarının məramlarından və şəxsi məqsədlərindən üstün tutmalıdırlar.

İctimai Şuranın üzvləri mövcud olan və ya potensial maraq toqquşmaları barədə bütün məlumatları, o cümlədən maraq toqquşması yarada biləcək institusional və ya təşkilatı mənsubiyyəti səmimi olaraq açıqlamalıdırlar. Bu cür məlumat açıqlanması etik qaydanın pozuntusu hesab edilmir.

İctimai Şuranın sədri, sədr müavinləri, katibi və digər vəzifə icra edən üzvlər öz vəzifələrindən xüsusi imtiyaz, gəlir və bəhrə əldə etmək üçün sui-istifadəyə yol verməməlidir.

İctimai vəkillik, insan hüquqlarının müdafiəsi, demokratik prosesin qurulması və digər oxşar fəaliyyətlər zamanı İctimai Şuranın üzvləri mənsub olduqları partiyanın (belə mənsubiyyət olduqda) siyasətindən tam müstəqil yanaşma nümayiş etdirməlidirlər. Hər hansı seçkiyə qatılaraq təşviqat kampaniyası aparan, başqa namizədin kampaniyasında iştirak edən şəxs ən azından seçki dövrü zamanı İctimai Şuranın üzvü qala bilməz və bu səbəbdən İctimai Şuradakı fəaliyyətini müvəqqəti olaraq dayandırmalı və bu barədə məlumatı yazılı şəkildə İctimai Şuranın sədrinə təqdim etməlidir.

***Dövlət qurumları ilə əlaqələr:***

İctimai Şura dövlət qurumları ilə yalnız "İctimai iştirakçılıq haqqında" qanunun yol verdiyi imkanlar çərçivəsində öz məqsədlərinə çatmaq üçün faydalı olduqda və öz müstəqilliyini itirmədikdə əməkdaşlıq edə bilər. İctimai Şuranın və onun üzvlərinin dövlət qurumları və hakimiyyət nümayəndələri ilə İctimai Şuranın fəaliyyəti üzrə müstəqilliyinə xələl gətirə biləcək istənilən əlaqə və əməkdaşlığına yol verilmir.

İctimai Şura uyğun olduqda və qarşılıqlı hörmət prinsipi əsasında dövlət qurumları ilə İctimai Şuranın gündəliyində olan məsələlərin həllinə töhfə verəcək dialoq axtarmalı və əməkdaşlıq etməlidir.

***Bəyanatlar, məqalələr, mövqelər:***

İctimai Şuranın üzvləri onun məqsəd və məramlarına, fundamental dəyər və prinsiplərə və "İctimai iştirakçılıq haqqında" qanuna zidd olan bəyanatlara, fakta əsaslanmayan nəşrlərə və mövqe ifadələrinə, o cümlədən İctimai Şuraya və onun üzvlərinə qarşı qarayxma kampaniyalarına yol verməməlidirlər.

İctimai Şura üzvlərinin bu təsisatdan kənar şəxsi mövqeləri İctimai Şuranın mövqeyi kimi təqdim edilə bilməz.

***Məsuliyyət:***

Bu Etik Davranış Qaydalarını və İctimai Şuranın fəaliyyətini tənzimləyən normativ hüquqi aktların tələblərini kobud şəkildə pozulması müvafiq məsuliyyət yaradır. İctimai Şuranın hər hansı üzvünün bu Qaydaların tələblərini pozması ilə bağlı məlumatı Şuranın istənilən üzvü, Şuranın idarəedici orqanlarında təmsil edən şəxslər İctimai Şuraya yazılı şəkildə təqdim edir. Barəsində şikayət verilmiş üzv öz mövqeyini 3 (üç) gün ərzində İctimai Şuranın katibinə bildirməlidir.

Şikayət edilmiş üzvün mövqeyinin təqdim edilməsi nəzərdə tutulmuş müddət bitdikdən ən geci 5 (beş) gün ərzində səsvermə yolu ilə Etik Davranış Qaydalarını və ya "İctimai iştirakçılıq haqqında" Qanunun tələblərini pozulması halında birinci dəfə baş verdikdə töhmət, ikinci dəfə baş verdikdə üzvün İctimai Şurada üzvlüyünə xitam verilməsi barədə qərar qəbul edirlər. Töhmət barədə qərar İctimai Şuranın iclasında iştirak edən üzvlərinin üçdə bir səs çoxluğu, İctimai Şura üzvlüyünə xitam verilməsi barədə qərar isə üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Qəbul edilmiş qərardan narazı qalan üzv məhkəməyə müraciət etmək hüququna malikdir.